DOI: 10.36719/AEM/2007-2020/53/115-118

**Xalıq Yusif oğlu Dadaşzadə**
Bakı Dövlət Universiteti
dadaszade.xaliq@gmail.com

# CİNAYƏT NƏTİCƏSİNDƏ VURULMUŞ ZƏRƏRİN ARADAN QALDIRILMASI PROBLEMLƏRİ

***Açar sözlər:*** *zərərçəkmiş şəxs, zərərin ödənilməsi, restitusiya, kompensasiya*
***Key word:*** *victim, reporation of damages, restitution, compensation*
***Ключевые слова:*** *потерпевший, возмещения ущерба, реституция, компенсация*

Tarix boyunca cinayət prosesində əsas tərəf kimi dövlət və cinayətin törədilməsində təqsirləndirilən şəxs çıxış edir və proses onların mübarizəsi, çəkişməsi şəraitində davam edirdi. Dövlətin əsas məqsədi maddi həqiqəti ortaya çıxarmaq, onun qoruduğu ictimai münasibətlərə törətdiyi ictimai təhlükəli əməllə zərər vuran şəxsi cəzalandırmaqdan ibarət olmuşdur. Cinayət nəticəsində maraqlarına zərər vurulmuş şəxs bu prosesdən kənar qalmış və onun rolu cinayəti xəbər verməklə məhdudlaşdırılmışdır, hüquqi statusu isə şahidin statusundan fərqlənməmişdir. Buna görə də zərərçəkmiş şəxs prosesdə aktiv iştirak edə bilməmiş, öz hüquqlarının və qanuni mənafelərinin şəxsən müdafiəsinə nail ola bilməmişdir. [1, s. 8] Zərərçəkmiş şəxsin cinayət prosesindəki belə hüquqi vəziyyəti ancaq 1970-ci illərdə müxtəlif beynəlxalq təşkilatların diqqətini cəlb etmiş və nəticədə BMT və Avropa şurası tərəfindən cinayətin qurbanının hüquqi vəziyyətinə dair müxtəlif sənədlərin qəbulunu şərtləndirmişdir.

BMT-nin Baş Assambleyası tərəfindən 29 noyabr 1985-ci ildə qəbul edilmiş "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamənin 4-cü bəndində göstərilmişdir ki, qurbanlara mərhəmət göstərmək və ləyaqətlərinə hörmətlə yanaşmaq lazımdır. Onlara ədalət mühakiməsinin vasitələrindən istifadə etmək və milli qanunvericiliyə əsasən dəymiş zərərin tezliklə ödənilməsini təmin etmək üçün şərait yaradılmalıdır.

Bəyannamədə cinayət qurbanlarının əmlak hüquqlarının müdafiəsi ilə əlaqədar olaraq restitusiya institutuna da geniş yer verilmişdir. Bu zaman restitusiya dedikdə, qanunsuz olaraq ələ keçirilmiş mülkiyyətin geri qaytarılması, yaxud vurulmuş ziyanın, viktimizasoya nəticəsində çəkilmiş xərclərin əvəzinin ödənilməsi, xidmətlərin göstərilməsi, hüquqların bərpa edilməsi və s. başa düşülür. [2, s.100]

"Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannaməsinin 1-ci bəndin görə, "qurban" dedikdə, üzv-dövlətlərin hakimiyyətdən cinayətkarcasına sui-istifadəni qadağan edən qanunları da daxil olmaqla qüvvədə olan cinayət qanunlarını pozan hərəkət və ya hərəkətsizlik nəticəsində fərdi və ya kollektiv şəkildə ziyan vurulmuş, o cümlədən bədən xəsarəti, mənəvi zərər, emosional iztirablar yetirilmiş, maddi ziyan vurulmuş, yaxud əsas hüquqları əhəmiyyətli dərəcədə pozulmuş şəxslər başa düşülür. Bu Bəyannaməyə görə, bu və ya digər şəxs hüquq pozucusunun müəyyən edilib-edilməməsindən, həbs edilib-edilməməsindən, məhkəməyə verilib-verilməməsindən, yaxud məhkum edilib-edilməməsindən, eləcə də hüquq pozucusu və qurban arasında qohumluq münasibətlərinin olub-olmamasından asılı olmayaraq, qurban hesab edilə bilər. "Qurban" termini müvafiq hallarda təkcə bilavasitə qurbanın özünü deyil, hətta bilavasitə qurbanın yaxın qohumlarını, yaxud onun himayəsində olan şəxsləri, o cümlədən çətin vəziyyətə düşmüş qurbanlara yardım göstərən, yaxud viktimizasiyanın qarşısını almaq istəyən şəxsləri əhatə edə bilir.[2, s.99]

AR CPM-in 87-ci maddəsində zərərçəkmiş şəxsə verilən anlayış prosessualdan daha çox cinayət-hüquqi anlayışdır. Bizdəki "zərərçəkmiş şəxs" anlayışı, beynəlxalq sənədlərdəki "qurban" anlayışından daha dar mənalıdır. Zərərçəkmiş şəxs anlayışına təkcə cinayət nəticəsində birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmuş şəxs daxildir. Beynəlxalq sənədlərdəki "qurban" anlayışı bilavasitə qurbanın özünü, habelə yaxın qohumlarnı, yaxud onun himayəsində olan şəxsləri əhatə edir. Bizdə hazırkı qaydaya görə, yaxın qohumlar cinayət prosesinə zərərçəkmiş şəxs öldüyü halda "hüquqi varis" qismində qoşula bilərlər.

Zərər çəkmiş şəxslərin qorunması ilə əlaqədar Avropa Şurası mühüm işlər görmüşdür. Şuranın 1974-cü ildə Vyanada toplanmış 9-cu ədliyyə nazirlərinin konfransında zərər çəkmiş şəxslərin zərərlərinin kompensasiyası ilə əlaqədar tövsiyə hazırlaması üçün qurulan XXIX alt komitə tərəfindən hesabat təqdim edilmişdir. Komitənin məqsədi zərər çəkmiş şəxslərin zərərlərinin ödənilməsi üçün mövcud üsulları nəzərdən keçirmək, onların yerini ala biləcək yeni üsullar və işləmə mexanizmləri haqqında rəy vermək olmuşdur.

Yuxarıda qeyd olunan hesabatda aşağıdakı tövsiyələr qeyd edilmişdir. 1-a. Sağlamlığına ağır zərər vurulmuş şəxsin; b. cinayət nəticəsində ölən şəxsin yaxınlarının kompensasiyası heç bir halda ödənmirsə, dövlət bu zərərin ödənilməsinə qoşulmalıdır. 2-Cinayət təqibi aparıla bilməyən sağlamlığa zərər vurulmuş təcavüz cinayətlərində də kompensasiya dövlət tərəfindən ödənilməlidir. 3- Kompensasiya ya sosial sığorta haqları, ya özəl kompensasiya proqramı, ya da sığorta yolu ilə ödənilməlidir. 4- Kompensasiya zərərin mahiyyəti və nəticələri nəzərə alınaraq mümkün olduğu qədər tam və ədalətli şəkildə ödənilməlidir. 5- Kompensasiya işin hallarına görə, ən azından əldən çıxan faydanın ödənilməsinə, xərclərin artmasına, müalicə xərclərinə, zərər çəkmiş şəxs sağalıncaya və işləməyə başlamasına qədər edilən xərclərin və yas (dəfn) mərasimi xərclərinin ödənilməsinə şamil edilməlidir. 6- Kompensasiyanın ən üst və ən aşağı hədləri təsbit edilməlidir. 7- Kompensasiya tam və ya hissə-hissə də ödənilə bilər. 8- Veriləcək kompensasiyanın gecikməsi halında zərər çəkmiş şəxsə müəyyən miqdar avans da verilə bilər. 9- Kompensasiyanın ikiqat ödənilməsinin qarşısını almaq üçün cinayətkardan, sosial sığorta və ya özəl sığorta kimi digər təşkilatlardan alınan və alınacaq vəsait əsas kompensasiyanın məbləğindən çıxılmalı, habelə zərər çəkmiş şəxsin bu təşkilatlardan əldə etdiyi vəsait hesablanmış kompensasiyadan artıqdırsa geri qaytarılmalıdır. 10- Dövlət mümkün olduğu qədər zərər çəkmiş şəxsin hüquqlarınınön plana almağa çalışmalıdır, lakin bu cinayətkarın islah olunmasına mənfi təsir etməməlidir. 11- Kompensasiya zərər çəkmiş şəxsin cinayətkarla olan münasibəti, ətrafı nəzərə alınaraq azaldıla və ya tamamilə ödənməyə bilər. 12- Dövlətlər arasında razılaşma olmazsa kompensasiya cinayətin törədildiyi dövlət tərəfindən ödənilməlidir.[3, s. 89]

Məsələn, Böyük Britaniyada 1996-cı ildə isə "Cinayət zərərlərinin kompensasiyası" Qanunu qəbul edilmiş və həmin qanunla "Criminal İnjuries Compensation Authority" (CİCA) təşkilatı yaradılmışdır. 2001, 2008 və 2012-ci illərdə yeni kompensasiya cədvəlləri təsdiq edilmişdir. [4] 2012-ci il "Cinayət zərərlərinin kompensasiyası" cədvəlində (bu cədvələ sonuncu dəfə 23 may 2019-cu ildə düzəliş qəbul edilmişdir) xəsarət növləri A və B qruplarına bölünmüş və xəsarətlərin ağırlığına görə dərəcələri müəyyən edilmişdir. Kompensasiya cədvəli üzrə ödənişlər son çarə kimi nəzərdə tutulmuşdur. Cinayətin qurbanı başqa yerdən kompensasiya almaq imkanlarını istifadə etməlidir. Ondan hüququ yaranırsa sosial təminat müavinətini, sığorta ödənişlərini alması və ya cinayətkardan kompensasiya almaq üçün bütün lazımi addımları atması tələb olunur və CİCA tərəfindən bunun üçün sübutlar tələb edilə bilər. Qurbanın başqa mənbədən kompensasiya ala bilməyəcəyi təsdiq olunanadək onun müraciəti üzrə qərar verilə bilməz.

Beləliklə, istər beynəlxalq sənədlərdə, istərsə də müqayisəli hüquqda görürük ki, cinayət prosesində zərərçəkmiş şəxsin zərərinin ödənilməsi cinayət mühakimə icraatında mülki iddia verməklə, restitusiya və kompensasiya yolu ilə həyata keçirilir. Yuxarıda qeyd etdiyimiz kimi artıq bir çox dövlətlərdə zərərçəkmiş şəxslərə cinayət nəticəsində vurulmuş zərərin ödənilməsi ayrıca mülki iddianın verilməsindən asılı edilməmiş, məhkəmədə cinayət işi ilə birgə zərərin ödənilməsi məsələsinin həlli məcburi olmuş və müəyyən hallarda (məsələn, cinayətkarın müəyyən edilməməsi, maddi imkanının olmaması və s.) isə dövlətin üzərinə kompensasiya öhdəliyi qoyulmuşdur. Dövlətlər isə öz növbəsində ya dövlət büdcəsindən maliyyələşən, ya da sığorta ödənişlərindən və digər gəlirlərdən maliyyələşən fondlar təsis etmişlər.

Cinayət prosesində mülki iddianın üstünlükləri prosessual qənaət və sübutların öyrənilməsinin bütövlüyü baxımından aydındır. Cinayət işində mülki iddiaçı kimi tanınan şəxs iki dəfə məhkəmə prosesində - əvvəlcə cinayət işində, daha sonra mülki işdə iştirak etməkdən azad olunur. Cinayət prosesində mülki iddianın sübut edilməsi mülki iddiaçı üçün məhkəmədəki sübutlarla çox çətin deyil. Təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxs tərəfindən cinayət törətməsi faktı sübuta yetirilərsə, dəymiş zərərin birbaşa cinayət nəticəsində törədildiyi təsdiqlənərsə, bir qayda olaraq iddianı təmin etmək üçün bütün əsaslar vardır. Buna görə, düşünürük ki, mülki iddiaçı üçün cinayət prosesində mülki prosesdən daha asandır. Dövlət hüquq-mühafizə orqanları onun üçün çox iş görür: sübut toplayır, dəymiş ziyanı müəyyənləşdirir, mülki iddianın təmini üçün tədbirlər görür və.s.

Hesab edirik ki, hər bir cinayət işində zərərçəkmiş şəxsə vurulmuş zərərin ödənilməsi məsələsinə hərtərəfli baxılmalıdır. Hər bir cinayət işi üzrə ilk növbədə ayrıca mülki iddia ilə və ya ittiham aktında zərərin ödənilməsi təqsirləndirilən şəxsdən tələb edilməli və məhkəmə subyektiv hüquqların bərpası ilə bağlı iddiaya baxmalı, mümkünsə zərərin məhkumun hesabına, əks halda dövlət tərəfindən kompensasiya edilməsinə dair qərar qəbul etməlidir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin mülki iddia, kompensasiya, xüsusi müsadirəni, habelə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin xüsusi müsadirəni tənzim edən maddələrinin ümumilikdə əlaqəli təhlili nəticəsində belə qənaətə gəlirik ki, bizdə də zərər çəkmiş şəxsə vurulmuş zərərin ödənilməsi mülki iddianın verilməsindən asılı olmayaraq təmin edilməlidir.

AR CM-in "**Cinayət nəticəsində vurulmuş ziyanın müsadirə edilmiş əmlak vasitəsilə ödənilməsi**" adlanan 99-3-cü maddəsindən görünür ki, hər bir cinayət işi üzrə xüsusi müsadirə və onunla əlaqəli olduğu

üçün cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi birgə həll edilməlidir. *[5]* Nəzərinizə çatdıraq ki, xüsusi müsadirə ilə bağlı müddəalara sonuncu dəfə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 09 iyul 2019-cu il tarixli Qanunu ilə dəyişiklik edilmişdir. Bizə görə bu dəyişikliklər mütərəqqi olsa da, cinayət nəticəsində vurulmuş ziyanın ödənilsinin xüsusi müsadirə məsələsindən asılı edilməsi hissəsində qanunvericinin mövqeyi ilə razılaşmırıq.

Bizdə mövcud məhkəmə təcrübəsindən məlumdur ki, məhkəmələr nəinki cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi məsələsini həll edir, əksər hallarda cinayət prosesi zamanı verilmiş mülki iddiaları AR CPM-in 180.3-cü maddəsinə istinad edərək baxılmamış saxlayır. Zərər çəkmiş şəxsə (cinayət qanunundakı ifadəsi ilə, əşyanın qanuni sahibinə) aid əşyaların qaytarılması isə maddi sübutlar barədə qəbul edilən qərarlarla həll edilir. Məsələn, oğurlanmış əşyanın sahibinə qaytarılması. Belə aydın olur ki, əşyanın qanuni sahibinə qaytarılması üzdə zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi və ya əvvəlki vəziyyətinin bərpası kimi (restitusiya) görünsə də, bununla faktiki olaraq maddi sübutların aqibəti məsələsi həll olunur. Ona görə ki, 87.6.20-ci maddəsinə əsasən, zərər çəkmiş şəxsin "..., cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətmiş şəxsdən ona məxsus əmlakı geri almaq" hüququdur. Yəni belə əmlakı almaq üçün zərər çəkmiş şəxsin mülki iddia verməsinə ehtiyac yoxdur. Bir növ bu hala fərqli prosedurlarla eyni nəticənin əldə olunması kimi baxmaq olar, lakin unutmaq olmaz ki, mülki iddiada daha çox məsələ öz həllini tapa bilər. Belə ki, AR CM-in 99-3-cü maddəsindəki " ... cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyan ödənilməlidir" ifadəsi ilə, sadəcə AR CM-in 99-1.1-ci maddələrində sadalanmış əşyaların qanuni sahibinə qaytarılmasını nəzərdə tutulmadığı açıq aydındır. Habelə, AR CM-in *132.1.2-ci maddəsində də "... xüsusi müsadirə olunmalı və* ***cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsinə yönəldilməli,*** *qalan hissəsi dövlətin nəfinə keçirilməlidir (zərər çəkmiş şəxs məlum olmadıqda isə tam həcmdə dövlətin nəfinə keçirilməlidir)" ifadəsi ilə xüsusi müsadirənin və maddi sübutların aqibəti həll olunarkən, birinci növbədə zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməli olduğu təsbit eddilmişdir.* Nəzərinizə çatdıraq ki, AR CPM-in 132-i maddəsi "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 09 iyul 2019-cu il tarixli Qanunu ilə yeni redaksiyada verilmişdir. [6] *Bu müddəa ilə qanunvericinin məhkəmənin üzərinə "cinayət nəticəsində zərər çəkmiş şəxsə vrurulmuş ziyanın ödənilməsi məsələsinin həll etmək" vəzifəsini qoyduğu məlum olur. Amma hazırkı qanunvericiliyə və məhkəmə təcrübəsinə əsasən deyə bilərik ki, mülki iddia verilməsə zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi məsələsinə məhkəmədə baxılmalı deyil. AR CPM-in 185-ci maddəsinə əsasən,* cinayət mühakimə icraatı zamanı təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə mülki iddiaçının, yaxud onun nümayəndəsinin vəsatəti və ya ***öz təşəbbüsü ilə verilmiş, yaxud gələcəkdə qaldırıla bilən mülki iddianın təmin edilməsi üçün tədbirlər görməlidir.*** Beləliklə, qanunvericiliyə görə ümumi qayda olaraq cinayət təqibi zamanı zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi, habelə mülki iddianın təmini üçün tədbirlərin görülməli olduğu təsbit edilməklə, mülki iddia qaldırılmasa belə faktiki olaraq belə məsələlərə cinayət prosesi zamanı baxılır, lakin vurulmuş ziyanın ödənilməsi üçün mülki iddianın verilməli olması burada səmərəliliyi aradan qaldırmışdır.

Maraqlıdır ki, AR CPM-in 87-ci maddəsində zərərçəkmiş şəxsin hüquqları arasında: 1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ona vurulmuş ziyana görə qanunla müəyyən edilmiş kompensasiyanı dövlət hesabına almaq; (87.6.18) 2. cinayət işi üzrə icraat zamanı sərf edilmiş xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq; (87.6.19) 3. cinayət prosesini həyata keçirən orqan tərəfindən maddi sübut qismində və ya digər əsaslarla götürülmüş əmlakı, ona məxsus rəsmi sənədlərin əslini geri almaq; cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətmiş şəxsdən ona məxsus əmlakı geri almaq; ( 87.6.20) hüquqları təsbit edilsə də, "cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətmiş şəxsin hesabına *cinayət nəticəsində ona vurulmuş zərərin aradan qaldırılmasını, cinayətdən əvvəlki vəziyyətin bərpa edilsini və ya vurulmuş ziyanın tam ödənilməsini tələb etmək" hüququ ayrıca olaraq qeyd edilməmişdir.*

## Nəticə

Zərərçəkmiş şəxsin statusunun və onun cinayət prosesinin iştirakçısı kimi təhlili nəticəsində aydın olur ki, onun olmadığı cinayət prosesi natamamdır, belə mühakimə ədalətli ola bilməz və bu mühakimə nəticəsində verilən qərar nə zərərçəkmişi, nə də ki sosial ədaləti təmin etməz. Onun mənafeləri nəzərə alınmadan cəzanın məqsədlərinə nail olmaq mümkün deyil. Zərərçəkmiş şəxsin zərərinin ödənilməsinin cinayət prosessual-qanunvericilikdə analitik-sistemli təhlili nəticəsində qanunvericiliyin bu sahədəki müddəalarının təkmilləşdirilməsi ilə bağlı aşağıdakı təklifləri edirik:

1) Vahid normayaratma texnikasına əməl etməklə, AR CPM-nin maddələrində zərərçəkmiş şəxsin anlayının maddi və prosessual aspektləri fərqləndirilsin. AR CPM-in 7-ci maddəsinə zərərçəkmiş şəxsin tərifi də daxil edilsin.

2) AR CPM-in 87-ci maddəsinin 6-cı bəndində zərərçəkmiş şəxsin hüquqları sırasına "cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətmiş şəxsin hesabına *cinayət nəticəsində ona vurulmuş zərərin aradan qaldırılmasını, cinayətdən əvvəlki vəziyyətin bərpa edilsini və ya vurulmuş ziyanın tam ödənilməsini tələb etmək" hüququ* əlavə edilsin.

3) "Cinayət işi başlama haqqında" qərarda və ya "zərər çəkmiş şəxs kimi tanınma haqqında" qərarda cinayət nəticəsində ziyan vurulmuş şəxsə "zərərçəmiş şəxs" statusu ilə yanaşı ayrıca mülki iddia verilmədən "mülki iddiaçı" statusu da verilməlidir. Bu zaman cinayət təqibi orqanı mülki iddianı öz qərarında əks etdirməli və zərərçəkmiş şəxs məlumatlandırılmalıdır. *AR CPM-in* 210.3-cü maddəsində "cinayətin törədilməsi barədə məlumatla birlikdə mülki iddia verildikdə isə" ifadəsi çıxarılsın, əvəzində "cinayət nəticəsində vurulmuş zərərin ödənilməsini tələb etdikdə və ya mülki iddiaçı qismində tanınmasına etiraz etmədikdə" ifadəsi əlavə edilsin. AR CPM-in 89.1-ci maddəsində "iddia vermiş" ifadəsindən sonra mötərizədə "cinayət nəticəsində vurulmuş zərərin ödənilməsini tələb etdikdə və ya mülki iddiaçı qismində tanınmasına etiraz etmədikdə" ifadəsi əlavə edilsin.

## Ədəbiyyat

1. Türk ve Fransız Ceza Muhakemesi Hukukunda mağdurun makam olarak yeri. Dr.Gülfem Pamuk. İstanbul. Beta 2012. 303 səh.
2. Cinayətdən zərər çəkmş şəxsin hüquq və qanuni maraqlarının beynəlxalq-hüquqi təminatları: X.R.Vəliyev; Qanun 04 (270), 2017
3. Yrd.Doç. Dr. Süleyman Akdemir. Ceza hukukunda mağdurun korunması. (sosyal qruplaşmaya yönelik bir yanlaşımı). Akevler Akdeniz Bilimsel Araşdırma Merkezi yayınları:4 Anadolu matbaacılık. 2003
4. D.3: The Criminal Injuries Compensation Authority https://www.iicsa.org.uk/publications/ investigation/accountability-reparations/part-d-criminal-compensation/d3-criminal-injuries-compensation-authority
5. Azərbaycan Respublikası Cinayət Məcəlləsi http://www.e-qanun.az/code/11
6. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi http://www.e-qanun.az/code/14

**Problems of compensation for damage caused by crime**
**Summary**

This article is dedicated the international practices related to reporation of damages (injuries, losses) inflicted by a crime and the right of the victims to restitution and compensation. Today the victim is no longer only a witness, but also a party to the proceedings criminal with many rights. One of the fundamental remedies for any victim is restitution (or restitutio in inyegrum). The author considers that compensation (as a form of restitution) is an effektivly remedy for the recovery of the broken rights of the victim.

**Проблемы компенсации за ущерб, причиненный преступностью**
**Резюме**

Эта статья посвящена международной практике возмещения ущерба (травм, убытков), причиненного преступлением, и права жертв на реституцию и компенсацию. Сегодня жертва уже не только свидетель, но и участник уголовного процесса со многими правами. Одним из основных средств правовой защиты для любой жертвы является реституция (или restitutio inyegrum). Автор считает, что компенсация (как форма реституции) является эффективным средством для восстановления нарушенных прав жертвы.

**Rəyçi: prof. Ş.Səmədova**

Göndərilib: 28.04.2020 Qəbul edilib: 29.04.2020